*“Ordu xidməti çox böyük fədakarlıq tələb edir, cəfakeşlik tələb edir. Ölkəmizin hər bir gənci, Azərbaycan xalqına, millətinə mənsub olan hər bir gənc öz şərəfli borcunu mütləq yerinə yetirməlidir, orduda xidmət etməlidir. Orduda xidmət edib, sonra tərxis olunan gənc bizim cəmiyyətdə də, həyatımızın bütün sahələrində də ən dəyərli insan hesab olunur”.*

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 fevral 2015-ci il № 14 (1930) Qiyməti 25 qəpik


## Rəsmi xronika

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 2 fevral tarixli 1176-IVQD nömrəli Qanununun tətbiqi haqqında sərəncam vermişdir.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da İran İslam Respublikasının xarici işlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə ölkələrimiz arasında regional təhlükəsizlik, terrorizmə qarşı mübarizə, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, enerji, nəqliyyat, müasir texnologiyalar, kənd təsərrüfatı və digər sahələrdə əlaqələrin inkişaf perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 17-də ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Viktoriya Nulandın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələrdə inkişafından razılıq ifadə olundu, Azərbaycan-ABŞ əməkdaşlığı yüksək qiymətləndirildi. Söhbət zamanı ölkələrimizin enerji, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, Əfqanıstanla bağlı əməkdaşlığının perspektivləri, insan hüquqları, demokratik təsisatlar, bu istiqamətdə dialoqun aparılması və digər məsələlər müzakirə edildi.*

*Görüşdə, eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması, bölgədə gərginliyin aradan qaldırılması, danışıqların davam etdirilməsi, regionda sülh və sabitliyin təmin olunması ilə bağlı məsələlər ətrafında da geniş fikir mübadiləsi aparıldı.*

* * *

✓ *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Amerika Birləşmiş Ştatlarının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Robert Sekutanın etimadnaməsini qəbul edib.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli əlaqələrin müxtəlif sahələri əhatə etdiyi məmnunluqla qeyd olundu. Bu əlaqələrin regional əməkdaşlıq, təhlükəsizlik, terrorizmə qarşı mübarizə, enerji, nəqliyyat və digər sahələrdə daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi. Söhbət zamanı Azərbaycan-ABŞ münasibətlərinin perspektivləri ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparıldı.*

**AzərTAc-ın materialları əsasında**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimiz ədalətə və beynəlxalq hüquqa əsaslanır”

***Məlum olduğu kimi, bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk Qrupunun həmsədrləri Pyer Andryönu (Fransa), İqor Popovu (Rusiya), Ceyms Uorliki (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi Anjey Kasprşiki, bir gün sonra isə ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini xanım Viktoriya Nulandın başçılıq etdiyi nümayəndə heyətini qəbul etdi. Bu görüşlərdə diqqəti çəkən əsas məqam Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ətrafında fikir mübadiləsi aparılması idi. Kütləvi informasiya vasitələri üçün açıqlanan məlumatda həmçinin bölgədə gərginliyin aradan qaldırılması, danışıqların davam etdirilməsi, regionda sülh və sabitliyin təmin olunması ilə bağlı məsələlərin müzakirə edildiyi bildirilirdi.***



Əlbəttə, bu danışıqların geniş detalları ictimaiyyətə açıqlanmır və bu da təbiidir. Dağlıq Qarabağ münaqişənin həlli ilə bağlı müəyyən razılaşmalar əldə edildikdə ictimaiyyətə ətraflı məlumat veriləcək. Bununla belə bir faktı qeyd etməyə dəyər ki, Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan dövlətinin prinsipial mövqeyini dəfələrlə yüksək tribunalardan səsləndirib və bu prinsiplərin dəyişməz olduğunu bəyan edib.

Dövlət başçısının qeyd etdiyi kimi, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanın ərazi bütövlüyü məsələləri heç vaxt danışıqlar predmeti olmayacaq. "Dağlıq Qarabağ münaqişəsinin həlli hazırda Azərbaycan dövləti üçün ən əsas məsələdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl fəaliyyət davam etdirilir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyimiz, yenə də deyirəm, ədalətə və beynəlxalq hüquqa əsaslanır".

Dövlətimizin başçısı bu il fevralın əvvəlində Almaniyanın Münhen şəhərində keçirilən Təhlükəsizlik Konfransı çərçivəsində "Ukraynadan əlavə - Avropada həll olunmamış münaqişələr" mövzusunda panel müzakirəsində iştirak edərkən Azərbaycan dövlətinin işğal edilmiş Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı prinsipial mövqeyini bir daha dünyaya bəyan elədi.

Beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartlara toxunan Prezident İlham Əliyev açıq bildirmişdi ki, Ermənistanın üzərində kifayət qədər beynəlxalq təzyiq yoxdur. "Biz bəzən onu görürük ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə saat olmasa da, bir neçə gün ərzində yerinə yetirilir. Bizə gəldikdə isə 1990-cı illərin əvvəllərində BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş dörd qətnamə var və onların heç biri yerinə yetirilməyib. Fikrimcə, təcavüzkara adekvat təzyiq göstərmək üçün vasitəçilərdə siyasi iradənin olmaması bizim bu gün üzləşdiyimiz real vəziyyətə gətirib çıxarıb". Asılı ölkə olan, özünü təmin etməyi bacarmayan Ermənistana xarici dəstəyin əsasən Minsk Qrupuna həmsədrlik edən ölkələr tərəfindən göstərildiyini paradoks kimi dəyərləndirən ölkəmizin rəhbəri vurğulayıb ki, postsovet məkanındakı bütün münaqişələrə eyni münasibət göstərilməlidir. “Azərbaycanın ərazi bütövlüyü indi hər kəsin haqqında danışdığı Ukraynanın ərazi bütövlüyü kimi eyni dəyərə malikdir”.

Və təbii ki, bu münaqişələrin hər biri üçün ayrıca həll mexanizmi yaratmağa əslində heç ehtiyac da yoxdur. Əgər mövcud beynəlxalq hüquq normalarına prinsipial yanaşma olarsa, ikili standartlara yol verilməzsə, mövcud problemlər dərhal öz həllini tapar və digər münaqişələrin alovlanmasına imkan yaranmaz.

Bununla bağlı Prezident İlham Əliyev Münhen Təhlükəsizlik Konfransı çərçivəsində aparılan panel müzakirəsində bir daha bəzi ölkələr tərəfindən yol verilən spekulyasiyalara açıq-aydın cavab verib: "Hər bir münaqişənin həlli beynəlxalq hüquq normalarına əsaslanmalıdır. Beynəlxalq hüququn bu normaları çox aydın şəkildə BMT-nin Nizamnaməsində və Helsinki Yekun Aktında öz əksini tapıb. Helsinki Yekun Aktında ərazi bütövlüyü prinsipi və öz müqəddəratını təyinetmə ilə bağlı çox aydın tərif var. Biz öz müqəddəratını təyinetmə prinsipinə qarşı deyilik, lakin bu prinsip ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Dağlıq Qarabağ erməniləri və Ermənistan ordusu tərəfindən qovulan Dağlıq Qarabağ azərbaycanlıları öz torpaqlarına qayıtdıqdan sonra öz həyatlarını qurmaq hüququna malik olacaqlar. Lakin bu, ölkənin ərazi bütövlüyünü pozmamalıdır. Ermənistanın cəhd etdiyi kimi, hər hansı bir ölkənin ərazi bütövlüyü güc tətbiq olunaraq dəyişdirilə bilməz. Üstəgəl istənilən ölkənin ərazi bütövlüyü bu ölkə ilə razılıq əldə olunmadan dəyişdirilə bilməz. Bunlar əsas prinsiplərdir".

Bir məsələni də qeyd etməyə dəyər ki, iqtisadi cəhətdən qüdrətlənən Azərbaycanın beynəlxalq səhnədə də nüfuzu yetərincə möhkəmlənir, dövlətimizin başçısının yüksək tribunalardan səsləndirdiyi fikirlər daha inamlı təsir bağışlayır, Azərbaycanın beynəlxalq hüquq normalarına əsaslanan qəti mövqeyi hörmətlə qarşılanır.

Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu möhkəmləndirən bir məqam isə güclü Azərbaycan Silahlı Qüvvələrinin mövcudluğudur. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin təşkili müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm tarixi nailiyyətlərindən biridir. Ordumuzun qüdrətləndirilməsini ölkə rəhbərliyi prioritet vəzifə səviyyəsinə qaldırıb. Təsadüfi deyil ki, bu gün Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusu hesab edilir.

Bu yaxınlarda ABŞ-ın "Global Firepower" araşdırma mərkəzi dünyanın ən nüfuzlu ordularının siyahısını hazırlayıb. Xoşdur ki, Azərbaycan Silahlı Qüvvələri bu siyahıda ilk 50-liyə düşüb. Ermənistanın adı isə, ümumiyyətlə, bu siyahıda yoxdur.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

# Texas ştatının Nümayəndələr Palatasında Xocalı soyqırımı qurbanlarının xatirəsi anılıb

***ABŞ-ın Texas ştatının Nümayəndələr Palatasının plenar iclası çərçivəsində Xocalı soyqırımına həsr olunan tədbir keçirilib.***

Nümayəndələr Palatasının üzvləri Rafael Ançiya və Mira Kraunoverin Azərbaycanın Dostları Assambleyası (AFAZ) ilə birgə təşkil etdikləri tədbirdə Texas ştatı Senatının və Nümayəndələr Palatasının üzvləri, ABŞ-da yaşayan Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Rafael Ançiya Azərbaycanın ABŞ-ın çox önəmli müttəfiqi olduğunu, ölkəmizin Birləşmiş Ştatlara və NATO-ya İraqda, Əfqanıstanda və Balkanlarda vacib dəstək, həmçinin regionun enerji təhlükəsizliyinə mühüm töhfə verdiyini söyləyib.

O, Xocalı qətliamından danışaraq, bu kimi faciələrin heç zaman unudulmamalı olduğunu və Azərbaycan ərazisinin bir hissəsinin indiyədək işğal altında qaldığını bildirib. R.Ançiya dövlət katibi Con Kerrinin fikirlərindən sitat gətirərək Azərbaycanın tolerantlığa, plüralizmə sadiqliyini qeyd edib və bu prinsiplər üzrə regionda nümunə olduğunu söyləyib.

Nümayəndələr Palatasının üzvü və komitə sədri Cozef Deşotel Azərbaycana səfər etdiyini xatırladıb, ölkəmizdən olduqca xoş təəssüratlarla qayıtdığını deyib. O, həmkarlarını da ABŞ-ın dostu olan Azərbaycana səfər etməyə çağırıb.

Yerli demokratların ən fəal nümayəndələrindən olan Roberto Alonso bildirib ki, Xocalı qətliamı kimi faciələr hər zaman xatırlanmalıdır və məhz buna görə də biz bu dəhşətli faciənin qurbanlarının xatirəsini anmaq üçün buraya yığışmışıq. O, regionda yalnız üç ölkə - Azərbaycan, İsrail və Türkiyənin ABŞ-ın dostu olduğunu bilməyin zəruriliyini qeyd edib.

Azərbaycanın ABŞ-dakı səfirliyinin müşaviri Məmməd Talıbov tədbirdə çıxış edərək Xocalı qətliamının hər bir azərbaycanlının qəlbində sızlayan yara və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ən qanlı və qara səhifəsi olduğunu deyib. O, Xocalının işğalı zamanı Ermənistan silahlı qüvvələri tərəfindən qadın, uşaq və qocalara fərq qoyulmadan şəhərin yüzlərlə günahsız sakininin qəddarcasına qətlə yetirildiyini bildirib. Diplomat Texasın Xocalı qətliamını rəsmən tanıyan ştatlar sırasında olmasına görə təşəkkürünü bildirib və bu tədbirdə çoxsaylı Texas rəsmilərinin iştirakının önəmini vurğulayıb. O, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn prinsipləri əsasında həll olunması məqsədilə səylərin artırılmasının vacibliyini qeyd edib.

M.Talıbov Azərbaycan ilə ABŞ arasında münasibətlərin strateji xarakter daşıdığını söyləyib. O, Azərbaycanın terrorizmə qarşı mübarizə, enerji təhlükəsizliyi və digər sahələrdə ABŞ üçün önəmini qeyd edib, bu kontekstdə “Cənub” qaz dəhlizinin prioritet layihə olduğunu qeyd edib.

Diplomat Xocalı qətliamı ilə bağlı bir neçə gün əvvəl verdiyi bəyanata görə, Texas ştatı Nümayəndələr Palatasının üzvü Cin Vuya təşəkkürünü bildirib.

Xatırladaq ki, Texas Xocalı qətliamını Nümayəndələr Palatası səviyyəsində tanımış birinci ABŞ ştatıdır. 2011-ci il martın 3-də Xocalı qətliamı ilə bağlı HR535 nömrəli qətnamə Texas ştatının Nümayəndələr Palatasında səsverməyə qoyularaq qəbul edilib.

**AzərTAc**

# Azərbaycan ilə Avstriya arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub

***Fevralın 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Avstriya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Aksel Vexi qəbul edib.***



Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edilib, ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri nəzərdən keçirilib və regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Avstriya Respublikası Silahlı Qüvvələrinin Türkiyə və Azərbaycandakı hərbi attaşesi polkovnik Kurt Radner iştirak edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Təmas xəttində monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 20-də Xocavənd rayonunun Kuropatkino kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinq keçirilib.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Jiri Aberle və Piter Svedberq keçiriblər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov və Yevgeni Şarov keçiriblər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***18 fevral 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini ümumilikdə 34 dəfə pozub.

Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelə-rindən Tovuz rayonunun Koxanəbi və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Kəngərli, Cəvahirli, Sarıcalı, Nəmirli, Füzuli rayonunun Qorqan, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***19 fevral 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini ümumilikdə 34 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərindən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Çaylı, Ağdam rayonunun Yusifcanlı, Kəngərli, Sarıcalı, Qaraqaşlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Qorqan, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərindən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

***20 fevral 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini ümumilikdə 36 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Goranboy rayonunun Talış, Tapqaraqoyunlu, Tərtər rayonunun Çiləbürt, Göyarx, Qızıl Oba, Ağdam rayonunun Yusifcanlı, Kəngərli, Sarıcalı, Şıxlar, Şuraabad, Baş Qərvənd, Qaraqaşlı, Mərzili, Füzuli rayonunun Qorqan, Horadiz, Qaraxanbəyli, Alxanlı, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Aşağı Veysəlli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

# "Dövlətin qayğısı güclü ordumuzun təminatıdır"

## Müdafiə Nazirliyi və Hərbi Prokurorluq cəbhəyanı bölgələrdəki hərbi hissələrdə birgə tədbirlər keçirib

***Müdafiə Nazirliyi Mətbuat Xidmətinin yaydığı məlumata görə, Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev və Azərbaycan Respublikası Baş Prokurorunun müavini, respublikanın Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev hər iki qurumun 2015-ci il üçün nəzərdə tutulmuş tədbirlər planına uyğun olaraq, bu günlərdə cəbhəyanı bölgələrdə yerləşən hərbi hissələrdə olublar.***




Birlik, birləşmə və hərbi hissələrdə müxtəlif kateqoriyadan olan hərbi qulluqçularla, həmçinin ön xətdə döyüş növbətçiliyini həyata keçirən şəxsi heyətlə keçirilən görüşlərdə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu ordu quruculuğu siyasəti nəticəsində orduda şəxsi heyətin döyüş ruhunun yüksəlməsi, həmçinin əsgər və zabitlərin sosial şəraitinin yaxşılaşması xüsusi vurğulanıb. Müdafiə nazirinin müavini və Hərbi prokuror qeyd ediblər ki, dövlət rəhbərliyinin orduya diqqət və qayğısı güclü ordumuzun təminatıdır.

Görüşdə Azərbaycan Ordusunun qarşısında dayanan mühüm vəzifədən - ölkəmizin ərazi bütövlüyünün təmin edilməsindən danışan Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyev qeyd edib ki, bu gün ordu rəhbərliyi tərəfindən həyata keçirilən bütün islahatlar bu vəzifənin yerinə yetirilməsinə güclü zəmin yaradır. "Müdafiə naziri general-polkovnik Zakir Həsənov dəfələrlə ordunun şəxsi heyət üzrə komandir müavinləri ilə keçirdiyi tədbirlərdə tövsiyə edib ki, şəxsi heyətin döyüş ruhunun artırılması üçün hər bir komandir, zabit kollektivdə şəxsi nümunə olmalıdır. Gərək hər kəs tabeliyində olan şəxsi heyətə dəyərli mənəvi keyfiyyətləri aşılamağı bacarsın, əlbəttə, bunun üçün zabit özü ilk növbədə nümunə olmalı, öz əsgərinin etibarını qazanmalıdır. Tabeliyindəki şəxsi heyətin inam və etibarını qazana bilməyən komandir döyüşdə uğur qazana bilməz", - deyə nazir müavini bildirib.

General-leytenant K.Vəliyev hazırkı mərhələdə orduda həyata keçirilən islahatlardan, şəxsi heyətin döyüş ruhunu artırmaq üçün görülən vacib tədbirlərdən, həmçinin irimiqyaslı təlimlərdən ətraflı söhbət açıb. Nazir müavininin sözlərinə görə, ordu rəhbərliyi tərəfindən görülən tədbirlər Silahlı Qüvvələrin döyüş qabiliyyətinin güclənməsində, döyüşçülərdə qələbəyə inam və digər psixoloji hisslərin aşılanmasında mühüm rola malikdir.



"Son illər ərzində dövlətimizin rəhbərliyi tərəfindən ordu quruculuğuna diqqət daha da artıb. Nazirlər Kabinetinin ötən ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında çıxış edən möhtərəm Prezidentimiz, Ali Baş Komandan cənab İlham Əliyev bir daha vurğulayıb ki, qarşıdakı dövrdə də ordunun hərbi potensialının güclənməsinə önəm veriləcəkdir. Artıq bu məqsədlə 2015-ci il üçün təsdiq edilmiş dövlət büdcəsində hərbi xərclər əhəmiyyətli dərəcədə artırılıb", - deyə ədliyyə general-leytenantı Xanlar Vəliyev komandirlərlə, onların şəxsi heyət üzrə müavinləri və hərbi hüquqşünaslarla keçirilən görüşlərdə bildirib. O, 2014-cü ildə qeydə alınmış cinayət hallarının əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə azalmasını vurğulayaraq qeyd edib ki, son vaxtlar Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, hərbi hissələrdə nizam-intizama və hərbi qanunvericiliyin tələblərinə ciddi riayət edilməsi cinayət hallarını törədə bilən amillərin vaxtında qarşısının alınmasında böyük əhəmiyyət kəsb edib. "Heç vaxt unutmaq olmaz ki, hərbi hissələrdə yaradılan nizam-intizam dövlət intizamının mühüm tərkib hissəsi olmaqla ordunun döyüş qabiliyyətinin gücləndirilməsinə zəmin yaradan əsas amillərdəndir", - deyib Hərbi prokuror.

Ərazi üzrə hərbi prokurorluqların rəhbər heyətinin iştirakı ilə keçirilən bu tədbirlərdə həmçinin gənc əsgər heyətinin hüquqi maarifləndirilməsi mövzusu da diqqət mərkəzində dayanıb. Bu sahədə komandirlərin şəxsi heyət üzrə müavinlərinin rolunun vacibliyini qeyd edən Azərbaycan Respublikasının Hərbi prokuroru X.Vəliyev hərbi hissələrin şəxsi heyəti ilə hüquqi söhbətlərin və digər profilaktik tədbirlərin aparılmasını hərbi prokurorluqların nümayəndələrinə də tövsiyə edib.

Görüşlərdə şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, hərbi intizamın və hüquq qaydalarının möhkəmləndirilməsi, ordu quruculuğuna mənfi təsir edə biləcək cinayət hadisələrinin təhlili və digər məsələlər barədə söhbətlər aparılıb, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb.

Sonra Müdafiə nazirinin müavini və respublikanın Hərbi prokuroru cəbhə xəttinə gedərək döyüş növbəsində dayanan əsgərlərlə görüşüblər. Döyüşçülərə qiymətli hədiyyələr təqdim edən ədliyyə general-leytenantı Xanlar Vəliyev Vətənimizin keşiyində dayanan hər kəsə dərin minnətdarlığını çatdırıb və əmin olduğunu bildirib ki, Azərbaycan Ordusu istənilən anda üzərinə düşən mühüm döyüş tapşırığını uğurla yerinə yetirəcəkdir.

Nazir müavini və Hərbi prokuror həmçinin əsgərlərlə birgə nahar süfrəsinə əyləşib.

**"Azərbaycan Ordusu"**

# Hərbi Akademiya 16 yaşını qeyd etdi

Hələ XX əsrin 70-ci illərində - Sovet dönəmində ümummilli liderimiz Heydər Əliyev ordu quruculuğu məsələlərinə - milli hərbi kadrların hazırlanmasına, Bakı Ali Ümumqoşun Komandirləri və Xəzər Ali Hərbi Dənizçilik məktəblərində azərbaycanlı müdavimlərin sayının artırılmasına çalışaraq, C.Naxçıvanski adına hərbi məktəbin yaradılmasına nail olmuş, məhz onun uzaqgörənliyi sayəsində müstəqil Azərbaycanımızın ordu quruculuğunda kadr potensialı təmin olunmuşdur.

Əbədiyaşar Ali Baş Komandan Heydər Əliyevin 1999-cu il fevralın 20-də imzaladığı Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaradılması haqqında fərmanı da Azərbaycanın müasir hərb tarixində önəmli yer tutur.

Bu gün Hərbi Akademiya Silahlı Qüvvələrimiz üçün yüksək ixtisas biliyinə, cəsarət, mərdlik və əzmkarlıq kimi dəyərlərə mükəmməl yiyələnmiş zabit kadrları yetişdirmək sahəsindəki uğurlarımıza güclü təkan verir.

Fevralın 20-si Simulyasiya mərkəzində Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaranmasının 16-cı ildönümü və müəllifi Hərbi Akademiyanın Dövlət Müdafiəsini İdarəetmə akademik kursunun rəisi polkovnik Raizi İsmayılov olan "Hərbi psixologiya və pedaqogika" adlı kitabının təqdimat mərasimi keçirilib. Mərasimdə Silahlı Qüvvələrin general, yüksək rütbəli zabit heyəti, AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun əməkdaşları, Milli Məclisin deputatları və digər qonaqlar iştirak edib. Tədbir iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra Dövlət himnini səsləndiriblər.

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbrik məktubunu tədbir iştirakçılarının diqqətinə çatdırmaq üçün söz Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Rüfət Əmirova verilib.



Təbrikdə deyilir: "Yoldaş generallar, zabitlər və gizirlər!

Hörmətli professor, müəllim heyəti!

Sizi Silahlı Qüvvələrin Hərbi Akademiyasının yaranmasının ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş Azərbaycan Ordusu qısa müddətdə böyük inkişaf yolu keçmişdir. Ulu öndərimizin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında əcdadlarımızın tarixi hərbi adət-ənənələrini yaşadan, xalqın sevgisi və dövlətin qayğısı ilə əhatə olunmuş müdafiə qüdrətinin artırılmasında böyük nailiyyətlər əldə etmişdir".

Müdafiə naziri general-polkovnik Zakir Həsənov Hərbi Akademiyanın general, zabit və müəllim heyətinə müraciətində, Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə bundan sonra da sadiq qalacaqlarına, döyüş və mənəvi-psixoloji hazırlıqda yeni uğurlar əldə edəcəklərinə, Silahlı Qüvvələr üçün ali təhsilli kadrların hazırlanmasında səylərini artıracaqlarına tam əminliyini ifadə etmişdir.

Tədbir Hərbi Akademiyanın rəisi general-leytenant Heydər Piriyevin ətraflı və geniş məruzəsi ilə davam edib. General xüsusi olaraq vurğuladı ki, "Hərbi psixologiya və pedaqogika" dərsliyinin təqdimat mərasiminin akademiyanın yaranması günü keçirilməsi heç də təsadüfi deyil. Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksək səviyyədə saxlanılmasında, mənəvi-psixoloji hazırlığın yüksək olmasında hərbi pedaqogika və psixologiya mühüm əhəmiyyət kəsb edir.

Şəxsiyyətin təcrübəli, peşəkar hərbçi kimi inkişaf etməsinin konstruktiv seçimini hərbi psixologiyanın təmin etdiyini diqqətə çatdıran general-leytenant H.Piriyev digər tərəfdən hərbi elmi əsaslara söykənərək müharibə və döyüşlərin psixoloji təhlili, ictimai-siyasi və psixoloji hazırlıqların, döyüş növbəsinin, qarovul xidmətinin mükəmməlləşdirilməsi yollarının düzgün əsaslandırılması üçün şərait yaratdığını qeyd edib.

Hərbi Akademiyanın rabitə və avtomatlaşdırılmış idarəetmə sistemi kafedrasının rəis müavini, dosent polkovnik Arif Həsənov "Hərbi psixologiya və pedaqogika" dərsliyinin əhəmiyyətindən söz açaraq bildirib ki, tabelikdə olan şəxsi heyətin komandlıq tərəfindən effektiv idarə olunmasının vacibliyinin qədim tarixi var. "Görkəmli Azərbaycan alimi, şair və yazıçısı Nəsrəddin Tusinin "Əxlaqi-Nasir" əsərində müəllifin mənəvi-psixoloji hazırlıq, insan, ailə, ordu, cəmiyyət, əxlaq, din, ictimai münasibətlər və s. ilə bağlı fikirləri parlaq əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti yanında "Bilik" fondunun direktoru Oktay Səmədov, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə və psixologiya elmləri doktoru Rəna Qədirova "Hərbi psixologiya və pedaqogika" adlı dərs vəsaitinə elmi nöqteyi-nəzərindən yanaşaraq dəyərli tövsiyə və təkliflərini veriblər.

Milli Məclisin deputatları Əli Hüseynli və Zahid Oruc orduda aparılan əhəmiyyətli islahatlardan danışaraq müharibə şəraitində olan ölkəmizin ordu qüvvələri üçün qiymətli mənbə olacaq kitabın araya-ərsəyə gəlməsində əməyi olan insanlara minnətdarlıqlarını çatdırıblar.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Ön xətdən reportaj*

# Vətən - qoruduğumuz müqəddəs məkan

***Bu yaxınlarda Füzuli istiqamətində yerləşən "N" hərbi hissəsində ezamiyyətdə olduq. Ön xətdə səngər həyatı yaşayan vətənpərvər döyüşçülərimizlə söhbət etdik, onların qayğılarını, ürək sözlərini qələmə aldıq. Həmçinin, burada əsgərlərimiz üçün yaradılan məişət şəraiti, müasir əsgər yeməkxanası, qərargahda nümunəvi xidmətin təşkili bizi ürəkdən sevindirdi. Bu səhifədə təəssüratlarımızı oxucularla bölüşürük.***

**General-polkovnik Zakir HƏSƏNOV:**

*"Son dövrlərdə düşmənə vurulan zərbələr işğalçıları qorxuya salıb, o, vahimə içindədir. Ermənistan iflic vəziyyətinə düşərək iqtisadiyyatı çökür, ordusu isə dağılmaq həddindədir. Düşmən anlamalıdır ki, onun yeganə çıxış yolu işğal etdiyi Azərbaycan torpaqlarını tərk etməsidir. Əks halda, Silahlı Qüvvələrimiz xalqımız və dövlətimiz qarşısındakı müqəddəs vəzifəni - torpaqlarımızın işğaldan azad edilməsi missiyasını yerinə yetirəcəkdir".*

*Təəssürat*

## "Komandirimi, əsgər dostlarımı unudan deyiləm"

Ön xətdə xidmət edən əsgərlərimizlə söhbətləşən məqamda Abşeron rayonundan orduya çağırılan təcrübəli döyüşçü Toğrul Qayıbovla tanış oldum. Öyrəndim ki, sadə bir azərbaycanlı ailəsində təlim-tərbiyə görmüş gəncin hərbi xidmətini başa vurmasına sanılı günlər qalıb. Elə bu məqsədlə də ordu həyatından hansı təəssüratlarla ayrılacağını öyrənməyə maraq göstərdim.

- Artıq 17 aydır ki, ön xətdə xidmət edirəm, - deyə əsgər bildirdi. - Mülki həyatda bəzilərinə elə gələ bilər ki, orduda, xüsusən də ön xətdə xidmət etmək çətindir, amma belə deyil. Hər şey adamın öz iradəsindən asılıdır. Əslində cəbhə bölgəsi həyatda gərəkli olan vacib mənəvi keyfiyyətləri adama aşılayır. Qorxmazlığı, mərdliyi, iradəli olmağı öyrənirsən. Yeniyetmə vaxtlarımda əsgərlikdən qayıdan qohum-tanışlarla söhbətləşəndə onlar deyərdilər ki, ordu kişilik məktəbidir. Həqiqətən də belədir, mülki həyatdan tam fərqli olaraq burada ciddi tələblərə əməl etməlisən, komandirinin tapşırıqlarını yerinə yetirməli və hərbi qaydaları gözləməlisən. Amma dediyim kimi, bu şərtlər adama zəruri olan xüsusiyyətləri aşılayır.



Bölük komandiri baş leytenant İlyasov tərxis olunmağa hazırlaşan təcrübəli əsgər haqqında ürəkdolusu danışdı. Qeyd etdi ki, nizam-intizamlı, hərbi xidmətin vacib tələblərinə cavab verən və daim döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gələn hərbçidir. "Doğrudur, Toğrul Qayıbovun xidmətini başa vurmasına az qalıb, amma inanıram ki, belə vətənpərvər əsgərlərimiz istənilən anda bizimlə çiyin-çiyinə döyüş vəzifəsini davam etdirməyə hazırdır".

Ölməz şairimiz Məmməd Araz yazırdı ki, "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı". Böyük həqiqətdir, doğrudan da, ürəyində Vətən sevgisini gəzdirən hər bir gəncimiz doğma yurdunun dar günündə daim bir döyüşçü kimi sınaqlara hazır olmalıdır. Azərbaycan Ordusunun bacarıqlı döyüşçülərindən olan Toğrul Qayıbov da sinəsində Vətən daşını gəzdirən belə oğullarımızdan biridir.

Əlbəttə, inanmaq lazımdır ki, bu gün ordu mühitində vətənpərvərliyi, bacarığı və digər mənəvi keyfiyyətləri ilə seçilən əsgər Qayıbov gələcək cəmiyyətimizin də fəal qurucularından və təəssübkeş vətəndaşlarından, ən əsası isə layiqli ailə başçılarından biri olacaq.



*Qabaqcıl təcrübə*

## "Tabeliyimdə olan əsgərlərə inanıram"

Taleyimi hərbi peşəyə bağlamaq istəyi məndə lap erkən yaşlarımda yaranıb. Həmişə müharibədən bəhs edən filmlərə baxanda özümü cəsur komandirlərə bənzədərdim, başa düşürdüm ki, komandir olmaq insanda əsl liderliyə, qəhrəmanlığa xas olan keyfiyyətləri formalaşdırır. Elə bu istəyimlə də orta təhsilimi başa vuran kimi ümummilli liderimiz Heydər Əliyevin adını daşıyan ali hərbi məktəbə daxil oldum. Təhsil aldığım illərdə ordumuzun dəyərli komandirləri ilə tanış olmaq imkanı qazandım və ən hazırlıqlı zabiti özümə ideal seçdim. Auditoriyada öyrəndiklərim, hərbi hissələrdə və təlimlərdə sınaq müddətində yiyələndiyim vərdişlər sonrakı dövrdə, yəni taqım komandiri kimi xidmətə başladığım ilk illərdə köməyimə yetişdi. Ön xətdə komandir olmaq nə qədər çətin və məsuliyyətli görünsə də, elə ilk günlərdən vəzifəmin öhdəsindən bacarıqla gələrək komandanlığın etimadını qazandım.

Artıq ilk illərin məsuliyyətli anları arxada qalıb. Mənə etimad göstərilib, yuxarı zabit vəzifəsinə irəli çəkilmişəm. Bu gün bölük komandiri olaraq düşmənlə təmas xəttində Vətənimizin ərazi bütövlüyünü qoruyuram. Tabeliyimdə bir-birindən cəsur, mətin əsgərlərim var. Onların hər biri ilə çiyin-çiyinə döyüşə atılmağa və düşmənə öz sözümü deməyə hazıram.

Bizim kollektivdə komandir-əsgər münasibətləri əsl döyüşçü həmrəyliyinə çevrilib, hamı özünü doğma bir ailədə olduğu kimi hiss edir. Şəxsi heyətin döyüş bacarıqlarını artırmaq üçün əsgərlərimiz arasında formalaşan dostluğu yüksək qiymətləndiririk. Belə bir qabaqcıl təcrübədən yetərincə faydalanmağa önəm veririk. "Əsgər əsgər üçün dost və qardaşdır". Bu həmrəylik mövqelərimizdə nümunəvi xidmətin təşkil edilməsinə etibarlı təminatdır. Hansı bir əsgərin çətinliyi ortalığa çıxarsa, hər kəs onunla dərdləşir. Çalışırıq ki, sıralarımızda kimsə məyus görkəmdə olmasın.

Döyüş növbətçiliyinin nümunəvi təşkili üçün qabaqcıl təcrübəyə də önəm veririk. Sıralarımıza qəbul edilən gənc əsgər döyüş təcrübəsi olan savadlı və bacarıqlı əsgərlərdən birinə təhkim olunur. Onlar bir müddət döyüş növbəsinə birgə çıxırlar. Bununla da gənc əsgərdə döyüşçü keyfiyyətləri formalaşır.

Gecə-gündüz mən də, müavinim olan zabit də əsgərlərin yanındayıq. Əsgər hiss edəndə ki, komandiri ona güvənir, onda ürəyində güc, təpər yaranır. Gecə növbələrinə baş çəkəndə əsgərlərdən biri silahı ilə yanımda dayanır, elə bil sinəsini düşmənə sipər edib məni qorumağa çalışır. O vaxt onu dünyanın ən hörmətli əsgəri hesab edirəm.

**Baş leytenant**
**Nicat İLYASOV**



*Əsgərin tribunası*

## "Vətən keşiyində dayanan bir əsgər kimi qürurluyam!"

Mən də əsgər silahdaşım Qayıbov kimi hərbi xidmətimin son günlərini yaşayıram. Amma əsgərliyimlə bağlı xatirələrim çoxdur. İlk dəfə Vətənə sədaqət andını qəbul etdiyim gün nə qədər qürurlu idimsə, bu gün də əhval-ruhiyyəm elə yüksəkdir. Axı bu yaxınlarda Vətənimiz Azərbaycana olan övladlıq borcumu başa vurub doğmalarımın yanına qayıdacağam.

Hərbi xidmət dövrünü insanın gənclik ömrünün qiymətli hissəsi hesab edənlər yanılmırlar. Çünki hərbi xidmət adamı müstəqil həyata, sabahkı cəmiyyətdə fəal mövqe tutmağa hazırlayan əsl məktəbdir. Ən əsası isə ordu səni Vətəni qorumağa hazır olan vətənpərvər, bacarıqlı bir döyüşçü kimi yetişdirir.

Ötənilki əlamətdar bir hadisə yaddaşımdan silinməyəcək. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bizim bölüyə gəldiyi, hər birimizlə görüşüb söhbət etdiyi tarixi gün haqqında deyirəm. Həmin gündən xeyli vaxt ötsə də, təəssüratları unuda bilmirik. Müdafiə naziri döyüş növbətçiliyində fərqlənən bir neçə əsgərə qol saatı bağışladı, hamı ilə hal-əhval tutdu. Bu görüş hərbi xidmətə olan marağımızı daha da artırdı.

Bu günlərdə yeni bir xəbərə sevindim. Bölük komandiri düzülüş zamanı şəxsi heyətin qarşısında bildirdi ki, nümunəvi xidmətlərinə görə bir neçə əsgərin ünvanına təşəkkür məktubları göndərilib. Bu əsgərlərin arasında öz adımı da eşidəndə, fərəh hissi qəlbimi dağa döndərdi. Komandanlıq adından imzalanmış bu məktubu Cəlilabad rayonunda valideynlərim sevinclə qarşılayıblar. Bir vaxt əsgərliyə yola düşəndə onlar mənə öyüd-nəsihət verərək Vətənə layiqli xidmət etməyimi arzulamışdılar.

Doğma qəzetimizdə dərc olunacaq məktubumda həm komandirlərimi, həm də valideynlərimi bir daha əmin edirəm ki, Vətən qarşısında üzərimə düşən övlad borcunu son nəfəsimədək yerinə yetirməyə hazıram.

**Əsgər**
**Sahib FƏRƏCOV**

*Asudə vaxt*

## Qəhrəmanlar gənclərin idealına çevrilir

"Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır". Ulu öndər Heydər Əliyevin dediyi bu sözlər həyatımın bütün dönəmlərində devizim olub. Gərək uşaqdan-böyüyə - hər kəs vətənpərvər böyüsün, düşmənini tanısın və başımıza gələn bəlaları unutmasın. Vətənpərvərlik mahiyyət etibarı ilə Vətənə məhəbbət və öz şəxsi maraqlarını Vətən yolunda qurban verməyə əsaslanan emosional hissiyyatdır. Bu, həm də mənsub olduğun millətin etnik, mədəni, siyasi və tarixi xüsusiyyətlərinə arxalanan milli hissiyyat və ya milli qürur kimi də başa düşülməlidir. Doğma xalqının milli-mənəvi xüsusiyyətlərini duymaq, öz mənliyində bu keyfiyyətləri hiss etmək, öz dövlətinin marağını qorumaq da vətənpərvərlik keyfiyyətlərinə aiddir.

Tale elə gətirdi ki, hərbçi oldum. İndi şəxsi heyətin təlim-tərbiyəsinə cavabdehlik daşıyıram. Bölük komandirinin şəxsi heyətlə iş üzrə müavini olaraq demək istəyirəm ki, əsgərə göstərilən diqqət və qayğı onu nümunəvi xidmət etməyə ruhlandıran əsas amillərdən biridir. Əldə silah, isti, soyuq bilmədən səngərdə dayanan hər bir Azərbaycan əsgəri qəhrəmandır. Cəsur döyüşçülərimiz Toğrul Qayıbov, Qərib Nəbizadə, Tunar Bilallı, Rövşən Sadıqov, Anar Qasımlı və onlarla başqası da belə əsgərlərdəndir. Onlar öz xidmətləri zamanı nizam-intizamları, ayıq-sayıqlıqları ilə fərqlənirlər. Buna görə də dəfələrlə təşəkkür və qiymətli hədiyyələrlə qiymətləndiriliblər.



Əsgərlərimizə tez-tez Milli Qəhrəmanımız Mübariz İbrahimovun hünər və rəşadətindən danışıram. Ona görə ki, yaxın dövrlərin qəhrəmanı olduğu üçün onu uşaqdan-böyüyə hamı tanıyır. Və belə qəhrəmanlar gənclərin idealına çevrilir.

Şübhəsiz, ön xətdə, çətin və ekstremal şəraitdə Vətənə övlad borcunu yerinə yetirən əsgərin vətənpərvər döyüşçü kimi formalaşmasının əsas məsuliyyəti komandirlərin, zabitlərin üzərinə düşür.

Günün istənilən vaxtında əsgərlərlə ünsiyyətdə olur, problemləri ilə maraqlanıram. Çalışıram ki, hər bir əsgər ürəyindəki arzusunu, sözünü və problemini məndən gizli saxlamasın. Hansı əsgərimizin ailəsində, səhhətində problem yaranırsa, onu diqqətlə dinləyir, qayğımızı əsirgəmirik. Bu zaman əsgərlər də ruhlanır, xidmətlərində uğurlar qazanmağa, nizam-intizamlı olmağa çalışırlar.

Hazırda ordumuzda əsl vətənpərvər əsgərlər xidmət edir. Bu gün xalqımız, millətimiz belə döyüşçülərə güvənir. Azərbaycan əsgəri bu etimadı canı, qanı bahasına doğrultmağa hazırdır...

**Baş leytenant**
**Elmar İSMAYILOV**

*Əsgər yeməkxanası*

## Ağ xalatlı analar əsgərlərimizin xidmətində...

Son zamanlar əsgərlərin məişət şəraiti tamamilə yaxşılaşıb. Hərbi hissələrə ezamiyyətimiz zamanı bunların şahidi oluruq. Yeni kazarmalar, əsgər yeməkxanaları, hamam və camaşırxanalar tikilərək şəxsi heyətin istifadəsinə verilir. Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsində də ən son avadanlıqlarla təchiz edilmiş əsgər yeməkxanası ilə tanışlığa imkan tapdıq.

Əsgərlərin maddi-texniki təminatına cavabdeh zabitlərdən olan polkovnik-leytenant Fərman Rəhimovun sözlərinə görə, şəxsi heyətin əşya və ərzaq təminatı son illərdə əhəmiyyətli dərəcədə yaxşılaşdırılıb.

F.Rəhimov hərbi hissədə əksər məişət işlərinin qadınlara tapşırıldığını qeyd edərək bildirdi ki, məişət işlərinin təcrübəli qadın qulluqçulara tapşırılması, şəxsi heyətin döyüş hazırlığına daha çox vaxt ayırması ilə nəticələnib. Həm də əvvəlki illərdə əsgərlər arasında düşən mübahisələrin böyük bir qismi məişət-təsərrüfat fəaliyyəti ilə bağlı idi.

Ərzaq xidmətinə cavabdeh zabit mayor Elnur Zeynalov isə bildirdi ki, bu yaxınlarda hərbi hissədə müasir standartlara cavab verən əsgər yeməkxanası istifadəyə verilib. Müdafiə naziri general-polkovnik Zakir Həsənov açılış mərasimində iştirak edib və əsgərlərlə bir süfrə arxasında əyləşib.



Əsgər yeməkxanası ilə tanışlığımız nahar vaxtına təsadüf etdi. Yeməkxananın təmiz və gözəl şəraiti ürəyimizcə oldu. Ağ xalatlı qadınlar əsgərlərimizə qulluq edirdilər. E.Zeynalov yeməkxanada peşəkar qadın heyətinin işgüzarlığından, səliqə-sahmanından söz açaraq əsgərlərimizə dolma, plov, küftə, bozbaş və s. kimi milli yeməklərin hazırlandığını qeyd etdi. Bir sözlə, şəxsi heyət yüksək kalorili ərzaqla təmin olunur.

"Bəs döyüş postları milli yeməklərlə necə təmin olunur?" - sualına cavab olaraq polkovnik-leytenant Fərman Rəhimov bildirdi ki, ön xətdəki bölmələrə ərzaq konservləşdirilmiş formada çatdırılır.

Ordumuz inkişaf edir, daim hərbi qüdrətini artırır. Əsgərlərimizin yeməklərindən tutmuş, bütün məişət qayğıları peşəkar qulluqçulara tapşırılır. Bu isə əsgərlərimizin rahatlığını təmin edir.

*Komplektləşdirmə*

## Tələbkarlıq olan yerdə...



Cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin nümunəvi qərargah bölmələrindən biri də komplektləşdirmə bölməsidir. Təcrübəli zabit Elnur Əliyevin tabeliyində olan bu bölmənin kollektivi qarşıya qoyulan tapşırıqları tələbkarlıqla yerinə yetirir. Baş leytenant Elmar Xəlilovun, gizir Nahid Tağıyevin, müddətdən artıq xidmət edən hərbi qullqçulardan Rəqsanə və Sahilə Mikayılovaların, Zinyət Məmmədovanın, Lalə Mehdiyevanın xidmət etdiyi bu kollektiv vəzifə borclarının öhdəsindən bacarıqla gəlir. Mayor E. Əliyevin sözlərinə görə, hərbi hissədə olan nizam-intizam və tələbkarlıq bölmədə xidmətin nümunəvi təşkilinə zəmin yaradır.

- Bölmədə hərbi hissəyə aid olan kargüzarlıq işləri, hərbi biletlərdə qeydlərin aparılması və s. kimi məsələlər vaxtında, qüsursuz icra edilir, - deyə mayor E.Əliyev bildirir. -Biz çalışırıq ki, üzərimizə düşən vəzifə borcumuzu diqqətlə yerinə yetirək. Buna görə də xidmətə olan tələbkarlığımızı daim artırmağa səy göstəririk.

Səhifəni hazırladılar:
Arif VAQİFOĞLU və Ceyhun KAZIMOĞLU,
"Azərbaycan Ordusu"

# Hərbi qulluqçular ümummilli liderimizin irsini dərindən öyrənirlər

## Maddi-Texniki Təminat Baş İdarəsinin bir qrup şəxsi heyəti Heydər Əliyev Mərkəzində olub



***Hər bir Azərbaycan vətəndaşı kimi, bu gün ordumuzun sıralarında xidmət edən əsgər və zabitlərimiz də yaxşı bilirlər ki, müasir Silahlı Qüvvələrimizin yaranmasında və formalaşmasında ümummilli liderimiz Heydər Əliyevin müstəsna xidmətləri olub. Məhz onun rəhbərliyi ilə hələ ötən əsrin sonlarında Azərbaycanda hərbi ənənələrin yenidən bərpa edilməsi istiqamətində böyük işlər görülüb. Buna görə də doğma ordumuzun güclənməsindən sonsuz qürur və fəxarət duyan hər bir azərbaycanlının qəlbində böyük öndərimizin əziz xatirəsi yaşayır.***

Müdafiə naziri tərəfindən təsdiq edilmiş plana əsasən, ordumuzda şəxsi heyətlə keçirilən ictimai-siyasi hazırlıq məşğələlərində ümummilli lider Heydər Əliyevin irsi hərbi qulluqçulara geniş təbliğ olunur. Bundan əlavə hərbi hissə və birləşmələrdə, hərbi tədris müəssisələrində, bir sözlə, bütün hərbi qurumlarda "Heydər Əliyev siyasi kursunu öyrənirik" mövzusunda əlavə mühazirələr təşkil edilir. Vaxtaşırı hərbi qulluqçular ölkəmizin paytaxtında və bölgələrdə yaradılmış Heydər Əlyev Mərkəzini ziyarət edir, ulu öndərin ömür yolunu və siyasi fəaliyyətini əks etdirən qiymətli eksponatlarla yaxından tanış olmaq imkanı qazanırlar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatında göstərildiyi kimi, fevralın 18-də nazirliyin Maddi-Texniki Təminat Baş İdarəsinin bir qrup şəxsi heyəti Heydər Əliyev Mərkəzini ziyarət edib. Bu tədbir dahi rəhbərin mənalı



həyatı və tarixi fəaliyyəti barədə əlavə məlumatların aşılanması baxımından hər kəsdə xoş təəssürat yaradıb.

"İstər ölkəmizin sürətli inkişaf yolunu, istər tariximizi, istərsə də ulu öndərimizin şəxsi həyatını və fəaliyyətini özündə əks etdirən sərgi nümunələri, qiymətli eksponatlar şəxsi heyətdə güclü maraq doğurub", - deyə məlumatda bildirilib.

**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

**1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:**

**Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.**

**Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.**

**Laçın (17 may 1992-ci il) - 1835 kv.km.**

**Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.**

**Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.**

**Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.**

**Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.**

**Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.**

**Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.**

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

*26 Fevral - Xocalı faciəsi*

# Unutmarıq! Unudulmayacaq!..

***Xocalı faciəsi faşist xarakteri təsdiqlənmiş erməniliyin törətdiyi qətliamdı. Dünya ictimaiyyəti gördü ki, erməni xisləti bəşəri duyğulardan çox-çox uzaqdı. 1992-ci il fevralın 26-da Xocalıda baş verənlərə görə baiskarlar lənətlənməyincə bəşəri humanizmdən, insan haqlarından danışmaq faciəni yaşamış millətin haqq səsini eşitməməkdi…***




Xocalı soyqırımı haqqında neçə-neçə əsərlər yazılıb, yazılacaq da. Oxuduqlarımdan, sənədli filmlərdən, verilişlərdən, xronikadan gördüklərimdən, bu sıradan Abdulla Qurbaninin "Xocalı yol gözləyir" rekviyem-tamaşasından xatırladıqlarım duyumumu titrədir, olmuşları mənə yenidən yaşadır, olmuşları yenidən yaşaya-yaşaya içimdəki dərdi ovundurmaq istəyirəm…

1992-ci ilin fevralına kimi Xocalıda 7 min əhali yaşayırdı. Neçə aylarla ermənilərin həmlələrinə, hücumlarına mərdliklə dözmüşdü. Sabiq SSRİ Silahlı Qüvvələrinin 366-cı alayının müdaxiləsi olmasaydı, ermənilər bu miqyasda hücuma cəsarətlənməzdi, belə bir faciə törədə bilməzdi…

Olmuşlara 23 ildən sonra da ürəyimizin gözü ilə baxıb görürük ki, şəhər dörd tərəfdən mühasirəyə alınandan sonra artilleriya və ağır texnikalardan davamlı, güclü atəşə məruz qalıb. Ermənilər qəfil hücuma keçiblər. Müdafiənin mümkünsüzlüyünü bilən əhali evlərini tərk etməyə məcbur olub. Səhər saat 6 radələrində şəhər işğal edilib.

613 nəfər öldürülüb. Onlardan 56 nəfəri xüsusi qəddarlıqla, amansızlıqla qətlə yetirilib, diri-diri yandırılıb, başı kəsilib, üz dərisi soyulub, körpə uşaqların gözləri çıxarılıb, hamilə qadınlara işgəncə verilib. 487 nəfər əlil olub, 1275 nəfər (qoca, qadın, uşaq) əsir götürülüb. 150 nəfərin taleyi bu günə kimi məlum deyil. Xocalı faciəsində 8 ailə tamamilə məhv edilib, 24 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib… Bu, əsl soyqırımdı.

...Ermənilərin yaxınlaşdığını hiss eləyənlər daldalanmağa çalışıb. Qəflətən üç-dörd aylıq körpə ağlamağa başlayıb. Anası ciyərparasını var gücü ilə sinəsinə sıxıb ki, səsini ermənilər eşitməsin, eşitsələr onları taparlar. Ermənilər ötüb-keçəndən sonra biliblər ki, körpə keçinib… Ermənilərin əlindən salamat qurtaranların çoxusu yollarda soyuqdan donub…

...Əhali meşələrə üz tutub, qarda, buzda hara gəldi qaçıb, çölə-düzə, meşələrə səpələnib, ölümdən, əsirlikdən uzaqlaşmağa çalışıb.

Ermənilər kimə çatıbsa, güllələyib, kimi tutubsa, işgəncə verib. Neçəsi ölümü əsirlikdən üstün bilib, xəncərlə, bıçaqla damarını kəsib.

...Qaçan yıxılanın qolundan yapışıb, özü torpağa sərilib…

...Ahıl bir kişinin əl ağacı əlindən düşüb. Nəvələri qoluna girib. Çətinliklə yeriyiblər. Ermənilərin səsi getdikcə yaxınlaşanda qoca ayaq saxlayıb. Nəvələrini bağrına basıb, kövrəkliklə dillənib: "Qaçın, camaat uzaqlaşmamış siz də qaçın". Nəvələr yerindən tərpənməyib. Qoca bir də təkid eləyib. Nəvələri qocanın boynuna sarılıblar, hönkürüblər və camaatın arxasınca qaçıblar. Qocanın gözlərindən yaş süzülüb. Sırıqlısının altından çıxartdığı xəncəri ürəyinə saplayıb...

...Daha qaça bilmədiyini hiss eləyən yeniyetmə isə əsir düşməmək üçün bacısını, sonra özünü öldürüb. Həmin oğlan qaniçənlərə təsdiqləyib ki, azərbaycanlılar bir qaşıq qanından qorxmur, ölümü əsirlikdən üstün tutur. Sağ qalanlar ölənlərin də əvəzindən vuruşacaq, erməniyə bir qarış da olsun torpaq verməyəcək!

Xocalı müdafiə oluna bilərdimi? Bu sual indi də üzə durur, dirəşir, cavab istəyir…

Erməniliyə yön basanlar kor deyildilər - görürdülər, kar deyildilər - eşidirdilər. Dünyanın dillərinə düyünmü düşmüşdü? Dillənib haqq naminə bircə kəlmə demədi. O gündən üzü bu yana da dillənmir, qətiyyətli söz demir, dillənməyə can çəkir…

"Xətai" metro stansiyasının qarşısında Xocalı faciəsinə abidə ucaldılıb. Bu abidə görənlərə 1992-ci il fevralın 26-da törədilmiş faciəni xatırladır. Belə bir abidə hamımızın ürəyində qoyulub. Nə vaxtsa dünya ictimaiyyəti Xocalıda törədilənləri birmənalı şəkildə etiraf edəcək. Londonun "Sandi Tayms" qəzeti yazırdı: "Erməni əsgərləri minlərlə ailəni məhv etmişlər. Çoxları eybəcər hala salınmışdı, körpə qızın ancaq başı qalmışdı" (4 mart 1992-ci il). Bunu dövlətin rəsmi qəzetinin əməkdaşı görür, yazır. Bəs baş şəhəri London olan dövlətin rəhbərliyi niyə dillənmir, Xocalıda soyqırım olduğunu niyə demir?

"Fant men nyus" (İngiltərə) teleşirkətinin əməkdaşı P.Patrik yazırdı: "Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözlərində heç nə ilə haqq qazandırmaq olmaz". Bunu dünya ictimaiyyəti niyə etiraf etmir? Ermənilərin uydurmalarına inanan dünya ictimaiyyəti mayor Leonid Kravetsin gördüklərinə niyə inanmır? Niyə?..

İkinci Dünya müharibəsində almanlar Xatın kəndini yandırmışdı. Müharibədən sonra Nürinberq məhkəməsində alman-faşist işğalçılarına verilən ittihamlardan biri də Xatın kəndinin yandırılması olmuşdu. Miqyasına, vəhşiliyin dərəcəsinə görə Xocalı faciəsi o faciədən böyük faciədi. Bəs niyə Xocalı soyqırımı beynəlxalq məhkəmənin subyekti olmasın?

Münhen Təhlükəsizlik Konfransı çərçivəsində "Ukraynadan əlavə - Avropada həll olunmamış münaqişələr" mövzusunda panel müzakirəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, Ermənistan Xocalıda törədilmişləri ört-basdır eləmək istəyir. Bəs çəkilmiş şəkillər? Bəs video-görüntülər? Bəs xarici mətbuatda faciə (soyqırım) ilə bağlı verilən məlumatlar? Bəs şahidlərin ifadələri?..

Xocalı faciəsi unudulmayacaq! Heç zaman unudulmayacaq!.. İşğal altında qalan, bizlərdən imdad diləyən torpaqlarımız azad ediləcək. Xocalı da azad ediləcək. Onu biz azad edəcəyik!..

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

***Müasir dövrdə Azərbaycan bir çox sahələrdə böyük uğurlara imza atdığı kimi, idman sahəsində də sorağımız sərhədlər aşır. Artıq idmançılarımız dünya arenalarında çıxış edərək yeni-yeni zirvələr fəth edirlər. Yüzlərlə ölkənin sırasında üçrəngli bayrağımız əzəmətlə dalğalanır, Dövlət himnimizin sədaları könülləri riqqətə gətirir. Əlbəttə, bütün bu uğurlarımız asanlıqla qazanılmır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məqsədyönlü gənclər siyasətinin əsas istiqamətlərindən biri də idmanın inkişafı ilə bağlıdır. Bu gün respublikamızda elə bir bölgə, şəhər yoxdur ki, orada müasir idman kompleksləri inşa edilməsin.***

*Fiziki hazırlıq*

# Ordu idmançılarının uğurları



Müdafiə Nazirliyi Mərkəzi Ordu İdman Klubunun yetirmələri də dəfələrlə mötəbər idman yarışlarında həm ölkəmizi, həm də Silahlı Qüvvələrimizi layiqincə təmsil ediblər. Yaxşı yadımdadır, sərbəst güləş üzrə Olimpiya çempionu titulunu qazanmış Azərbaycan Ordusunun əsgəri Fərid Mansurovun tarixi qələbəsi ilə xalqımız uzun müddət qürur hissi yaşamışdı. Bəs hazırda vəziyyət necədir, ordu idmançıları hansı qayğılarla yaşayır və onları qarşıda hansı mühüm vəzifələr gözləyir? Bu suallara cavab tapmaq məqsədilə Mərkəzi Ordu İdman Klubunun rəisi polkovnik-leytenant Rəşad Quliyevlə söhbət etdik.

- Bildiyiniz kimi, ölkəmizdə tanınan bir çox idmançılar həm erkən yaşlarında, həm də əsgəri xidmətdə olduqları dövrdə ordu klubunun yetirmələri olublar, - deyə R.Quliyev bildirdi. - Bununla bərabər tanınmış məşqçilər də öz uğurlarına ilk vəsiqəni bizim klubda qazanıblar. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində idmanın daha da inkişaf etdirilməsinin nəticəsi olaraq ordu idmanı da bir sıra uğurlara imza atıb. Xüsusi olaraq qeyd etmək istərdim ki, Beynəlxalq Hərbi İdman Oyunlarının ilk dəfə Bakıda keçirilməsi tək Silahlı Qüvvələrimiz üçün deyil, bütövlükdə ölkəmizin idman ictimaiyyəti üçün yaddalan bir hadisə idi. Hazırda ordu idmançıları Cənubi Koreyada keçiriləcək 6-cı Beynəlxalq Hərbi İdman Oyunlarına ciddi hazırlaşır.

Hələ keçmiş Sovet dövründən peşəkar futbol komandası kimi ad qazanmış "MOİK"-də idmanın digər növlərinin inkişaf etdirilməsinə də önəm verilib. Klubun nəzdində hazırda 18 idman növü üzrə bölmələr fəaliyyət göstərir. Cüdo, sərbəst və yunan-Roma güləşi, boks, ağır atletika və digər idman növləri üzrə bacarıqlı idmançılar yetirən klubumuz Beynəlxalq Hərbi İdman Şurasının fəal üzvlərindən biridir. "MOİK" təmsilçiləri ötən illərdə bu mötəbər qurumun xətti ilə keçirilən Ümumdünya Hərbi İdman Oyunlarında uğurla çıxış edərək 31 qızıl, 38 gümüş və 52 bürünc medal qazanmışlar. Elə bu uğurlarına görə klub beynəlxalq hərbi idman təşkilatının üzvü olan 130 dövlət arasında 11-ci yerə layiq görülüb. Yeri gəlmişkən qeyd etməyi özümə borc bilirəm ki, belə möhtəşəm nailiyyətlərin qazanılmasına səbəb olan əsas amil dövlət başçımızın və Müdafiə Nazirliyi rəhbərliyinin ordu idmanına göstərdiyi yüksək diqqət və qayğıdır.

Hazırda Mərkəzi Ordu İdman Klubunda mayor Nazim Əlicanov, kapitan Taleh İsrafilov kimi təcrübəli və tələbkar məşqçilər çalışır. Məhz onların zəhməti sayəsində formalaşan peşəkar güləşçilər beynəlxalq idman tədbirlərində ölkəmizi uğurla təmsil edirlər. Onlardan Yaşar və Hacı Əliyev qardaşlarını, Elcan Yusifovu, Elmar Əliyevi və başqalarını misal göstərmək olar.

Ötən ilin yekunlarına görə fərqlənən idmançılarımıza Silahlı Qüvvələrin Baş Qərargah rəisi tərəfindən qiymətli hədiyyələr, fəxri fərman və təşəkkürlər elan edilib. Yaxın günlərdə həmin idmançılarla görüşdə mükafatları öz sahiblərinə təqdim etdik. Fürsətdən istifadə edib fəaliyyətimizə göstərilən yüksək diqqətə görə ordu rəhbərliyinə idmançılarımız və məşqçilərimiz adından öz minnətdarlığımı bildirmək istərdim.

Bu il artıq idmançılarımızın ilk nailiyyətlərindən xəbər tutmuşuq. İranda, Dağıstanda keçirilən beynəlxalq səviyyəli yarışlarda, həmçinin respublika turnirlərində təmsilçilərimiz yetərli uğurlara imza atıblar. Ölkəmizin paytaxtında keçiriləcək "Bakı-2015" ilk Avropa oyunlarında Vətənimizi müxtəlif idman növləri üzrə təmsil edəcək nümayəndələr sırasında "MOİK"-in yetirmələri də olacaq. İnanıram ki, onlar bu dəfə də Azərbaycanı və Silahlı Qüvvələrimizi layiqincə təmsil edəcəklər.

**Söhbəti yazdı:**
**A.VAQİFOĞLU,**
**"Azərbaycan Ordusu"**

# İdman

### I Avropa Oyunlarında 128 taekvondoçu iştirak edəcək



I Avropa Oyunlarının taekvondo yarışlarında 128 kişi və qadın idmançı birincilik uğrunda mübarizə aparacaq. Hər çəki kateqoriyası üzrə Dünya Taekvondo Federasiyasının Olimpiya reytinq siyahısında ilk 14 yeri tutan idmançılar turnirə birbaşa vəsiqə qazanırlar. Həmçinin yarışlara ev sahibliyi edən ölkəyə bir yer verilir.

AzərTAc xəbər verir ki, taekvondoçular səkkiz çəki dərəcəsində ümumilikdə 24 medal uğrunda yarışacaqlar.

### UEFA "Qarabağ" - "İnter" matçında hakimin səhvə yol verdiyini etiraf edib




UEFA Avropa Liqasının qrup mərhələsinin VI turunun "İnter"lə (İtaliya) görüşü zamanı hakim səhvinin qurbanı olan "Qarabağ"ın şikayəti ilə bağlı qərarını açıqlayıb. Qitə futbol qurumu 0:0 hesabı ilə başa çatan görüşün son dəqiqələrində vurulan qolun hesaba alınmaması ilə bağlı iradını bildirən Ağdam təmsilçisinin haqlı olduğu qənaətinə gəlib. UEFA Miroslav Zelinkanın başçılıq etdiyi hakimlər briqadasının təmiz qolu qeydə almamasını, səhvə yol verdiyini etiraf edib. Gözlənildiyi kimi, oyunun yenidən keçirilməsi haqqında qərar qəbul olunmayıb. Sonda belə kobud səhvə yol verən çexiyalı hakimin cəzalandırılacağı vurğulanıb.

### Azərbaycanın qadın xokkeyçiləri Fransa yığmasına qalib gəliblər



Azərbaycanın qadın otüstü xokkeyçilərindən ibarət millisi Dünya Xokkey Liqasının ikinci mərhələsində növbəti qələbəsini qazanıb. AzərTAc xəbər verir ki, Uruqvayın paytaxtı Montevideoda təşkil olunan yarışda "B" qrupunda millimiz Fransa yığması ilə qarşılaşıb. Görüş xokkeyçi qızlarımızın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb.

İlk görüşdə millimiz Trinidad-Tobaqo kollektivinə 5:1 hesabı ilə qalib gəlib. Turnirin finalçıları Dünya Xokkey Liqasının növbəti raunduna birbaşa vəsiqə qazanacaq. Uruqvayda üçüncü yeri tutan komanda da belə bir şansa sahib ola bilər.

### Azərbaycan idmançıları Türkiyədə beynəlxalq turnirdə uğurlu çıxış ediblər



Antalya şəhərində "Turkish open" beynəlxalq turniri keçirilib. AzərTAc xəbər verir ki, yarışda ölkəmizi 46 taekvondoçu və məşqçilər heyəti təmsil edib.

Turnirdə idmançılarımız uğurlu mübarizə apararaq aktivlərinə medallar əlavə ediblər. Kişilər arasında 54 kq çəki dərəcəsində mübarizəyə qatılan Mikayıl Əliyev rəqiblərinə şans verməyərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Digər taekvondoçularımız Məhəmməd Məmmədov (58 kq) və Anar Hüseynli (49 kq) yarışı bürünc medallarla başa vurublar.

Qızların mübarizəsində isə 42 kq çəki dərəcəsində Mehriban Məmmədova bürünc , Nərgiz Mirzəyeva isə gümüş medal qazanıb.

### Azərbaycanlı veloSəyyah 17 min kilometr məsafə qət edərək İtaliyaya çatıb



İki il davam edəcək "Azərbaycan naminə pedalla" devizi altında növbəti dəfə dünya turuna çıxmış məşhur azərbaycanlı veloSəyyah Ramil Ziyadov artıq İtaliyadadır. O, 17 min kilometr məsafə qət edərək İtaliyanın paytaxtı Romaya çatıb. Velosipedçi Gürcüstan, Rusiya, Ukrayna, Belarus, Moldova, Rumıniya, Türkiyə və Yunanıstan ərazisindən keçərək İtaliyaya daxil olub.

Səfər etdiyi ölkələrin KİV-lərində velosipedçimiz ilə bağlı bir sıra yazılar və videosüjetlər yayımlanıb. Bu da bütün dünyada R.Ziyadovun maraqla qarşılandığını göstərir.

Azərbaycanlı veloSəyyah İtaliyadan sonra Fransaya, İspaniyaya və Afrika ölkələrinə səyahət etmək niyyətində olduğunu bildirib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 293
Nüsxə 4600